AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI

Bakı şəhəri **№390/2** **16 oktyabr 2026-cı il**

İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə audit aparan auditor təşkilatlarının və sərbəst auditorların hesabatlılığına dair metodik vəsaitin və illik hesabat formasının təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası, Palatanın Auditin təşkili və hesabatlılıq idarəsi tərəfindən hazırlanmış "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə audit aparan auditor təşkilatlarının və sərbəst auditorların hesabatlılığına dair metodik vəsaitin və illik hesabat formasının təsdiq edilməsi haqqında" metodik vəsaitin layihəsini müzakirə edildikdən, ictimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə auditin keyfiyyətinin, habelə auditor hesabatlılığının yüksəldilməsinin dövlətin və cəmiyyətin qanuni mənafelərinin müdafiəsinə, dövlət vəsaitlərindən və ictimai resurslardan istifadədə şəffaflığın gücləndirilməsinə xidmət etdiyini, bu sahədə etibarlı hesabatlılıq mexanizmlərinin formalaşdırılmasının maliyyə intizamının möhkəmləndirilməsi, idarəetmədə məsuliyyətin artırılması və müstəqil auditə ictimai etimadın qorunması baxımından strateji əhəmiyyət daşıdığını nəzərə alaraq, həmçinin Auditorlar Palatasının 2026-cı il üzrə iş planının 1.1.8-ci "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə audit aparan auditor təşkilatlarının və sərbəst auditorların hesabatlılığına dair xarici təcrübənin öyrənilməsi və metodik vəsaitin hazırlanması" və 1.11-ci "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə audit aparan auditor təşkilatlarının və sərbəst auditorların hesabatlarının təqdim olunmasının təmin edilməsi və təhlili" bəndlərinin icrasını təmin etmək məqsədilə, "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununu və "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməni rəhbər tutaraq Auditorlar Palatasının Şurası

QƏRARA ALIR:

1. İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə audit aparan auditor təşkilatlarının və sərbəst auditorların hesabatlılığına dair metodik vəsait və hesabat forması təsdiq edilsin (əlavə olunur).

2. Auditin təşkili və hesabatlılıq idarəsinə (V. Cavadov) tapşırılsın ki:

2.1. bu qərar qüvvəyə mindiyi gündən on iş günü müddətində qərarın və onun əlavələrinin auditor təşkilatlarına və sərbəst auditorlara çatdırılmasını təmin etsin;

2.2. aidiyyəti auditor təşkilatlarına və sərbəst auditorlara illik hesabat formasının doldurulması üzrə metodik dəstək göstərsin, hesabatların vaxtında təqdim edilməsini və məlumatların tamlığının yoxlanılmasını təşkil etsin;

2.3. təqdim edilmiş illik hesabatları təhlil etsin və nəticələrinə dair icmal-təhlili təkliflərlə birlikdə hər il mayın 31-dək Palatanın Şurasına təqdim etsin. İlk icmal-təhlil 2028-ci ildə təqdim edilsin.

3. Kadr hazırlığı idarəsinə (E.Hacıyeva) tapşırılsın ki, Auditin təşkili və hesabatlılıq idarəsi ilə birlikdə 2026-cı il dekabrın 15-dək metodik vəsaitin tətbiqi və illik hesabat formasının doldurulması üzrə auditor təşkilatları və sərbəst auditorlar üçün ustad dərsinin keçirilməsi təmin edilsin.

4. Auditin transformasiyası və operativ tənzimləmə idarəsinə (Q.Əhmədov) tapşırılsın ki:

4.1. Auditin təşkili və hesabatlılıq idarəsi ilə birlikdə 2027-ci ilin yanvar ayı ərzində illik hesabat formasının “Auditorun şəxsi kabineti” elektron sisteminə inteqrasiyasını, habelə illik hesabatın elektron qaydada doldurulması, saxlanılması, təqdim edilməsi və təqdimetmə tarixinin qeydə alınması imkanlarını təmin etsin;

4.2. bir həftə müddətində bu qərarın və ona əlavələrin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

5. Bu qərar qəbul edildiyi gündən qüvvəyə minir.

Şuranın sədri **Vahid Novruzov**